**“Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 19 mart tarixli 560 nömrəli Fərmanının icrası ilə bağlı əlavə tədbirlər barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

“Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 19 mart tarixli 560 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Müəyyən edilsin ki, “Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 19 mart tarixli 560 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti haqqında Əsasnamə"nin 9.6.-cı bəndində nəzərdə tutulmuş əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin dəvətlərini qeydiyyatının aparılması Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi tərəfindən təqdim olunan məlumat əsasında həyata keçirilir.

~~2. Müəyyən edilsin ki:~~

~~2.1. xarici ölkələrin Azərbaycan Respublikasında fəaliyyət göstərən diplomatik nümayəndəlik və konsulluqlarının, habelə beynəlxalq təşkilatların nümayəndəliklərinin əməkdaşları və onları ailə üzvləri, həmçinin Azərbaycan Respublikasına xüsusi diplomatik missiya ilə səfər edən əcnəbilər üçün vizaların müddətlərinin uzadılması Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi tərəfindən həyata keçirilir;~~

~~2.2. viza əsasında Azərbaycan Respublikasına gələn digər əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün vizaların müddətlərinin uzadılması həmin şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılmasına dair Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin qərarı əsasında Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi tərəfindən həyata keçirilir.~~ i[1]

3. “Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 19 mart tarixli 560 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti haqqında Əsasnamə"nin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 3, maddə 239) 9.6-cı bəndində “və viza müddətlərinin” sözləri “müddətinin” sözü ilə əvəz edilsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, “Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirlik, konsulluq və başqa diplomatik nümayəndəliklər tərəfindən ölkədən getmək və ölkəyə gəlmək üçün əcnəbi vətəndaşlara verilən viza blanklarının ciddi hesabat sənədi kimi uçotu və tətbiqi Qaydalarının təsdiq edilməsi haqqında” 2002-ci il 10 aprel tarixli 59 nömrəli, “Azərbaycan Respublikasına gəlmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün vizaların müddətlərinin uzadılması Qaydaları”nın təsdiq edilməsi haqqında “2004-cü il 6 mart tarixli 25 nömrəli və “Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarına və sərəncamına əlavələr və dəyişikliklər edilməsi barədə” 2008-ci il 11 yanvar tarixli 2 nömrəli qərarlarının bu fərmana uyğunlaşdırılmasını təmin etsin.

5. Bu fərman imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 16 yanvar 2008-ci il.
№ 700

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 20 iyul 2009-cu il tarixli 129 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 22 iyul 2009-cu il, № 163)**

## FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[i[1]] 20 iyul 2009-cu il tarixli 129 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 22 iyul 2009-cu il, № 163)** ilə 2-ci bəndi çıxarılmışdır.